# N.A.RUBAKİNİN BİBLİOPSİXOLOGİYA NƏZƏRİYYƏSİNDƏ ŞƏXSİ TƏHSİL FƏALİYYƏTİNİN OXUCU ŞƏXSİYYƏTİNƏ UYĞUNLAŞDLRILMASI

**E.L.ƏJDƏROV**
***Bakı Dövlət Universiteti***
***Kitabxanaşünaslıq kafedrasının dissertantı***
***rubakin.aleksadrovic@mail.ru***

*Məqalə N.A.Rubakinin bibliopsixologiya nəzəriyəsində şəxsi təhsil fəaliyyət və onun oxucu şəxsiyyətinə uyğunlaşdırılması problemini əhatə edir.*

***Açar sözlər:*** *şəxsi təhsil, oxucu şəxsiyyəti, N.A.Rubakin, bibliopsixologiya.*

Nikolay Aleksandroviç Rubakin ixtisasca həm riyaziyyatçı, həm də hüquqşünas idi. O, Peterburq Universitetinin fizika-riyaziyyat və hüquq fakültələrini bitirmişdi. Lakin bununla bərabər mütaliəyə, elmə olan yaradıcı münasibət onun həyata müxtəlif baxış prizmalarından yanaşmasından irəli gəlirdi. O hesab edirdi ki, bibliopsixologiyanın predmeti kitabxana, kitab işi ilə əlaqədar proseslərin psixologiyasıdır. Lakin N.A.Rubakin yaradıcılığı, fikirləri ilə tanış olduqda aydın olur ki, digər elmlərin özündə cəm etdiyi fikir, nəzəriyyələr kimi bibliopsixologiya nəzəriyyəsi də obyekt olaraq insan adlanan sosial-bioloji varlığa istiqamətlənir və onun zənginləşməsinə xidmət edir. Onun "Kitablar arasında"kı əsəri bu mənada böyük əhəmiyyət kəsb edir. Əsər bir çox müxtəlif sahə mütəxəssisləri tərəfindən həm elmi-nəzəri, həm də təcrübi baxımdan qiymətləndirilir. "Şəxsi təhsil fəaliyyəti" "Kitablar arasında" əsərində əsas müzakirə obyektidir. Bununla bərabər N.A.Rubakin "Şəxsi təhsil fəaliyyəti" mövzusu fonunda dövrünün mütaliə problemlərini, sosial-psixoloji məsələləri diqqət mərkəzində saxlayır. O "şəxsi təhsil" problemini praktik baxımdan "Kitablar arasında" əsərini çap etməklə təsdiq edir. Konkret olaraq "şəxsi təhsil" problemi yüzlərlə oxucularla aparılan məktublar əsasında formalaşmışdır. Belə ki, N.A.Rubakin yazır: "Bu kitab oxucularla məktublaşmaya əsaslanıb. Oxucular özləri də başa düşmədən bu kitabın təşkil olunmasında vacib rol oynayıblar. Ona görə çox zəruridir ki, məktublaşmanın necə aparıldığını göstərək" [5, 633].

Yuxarıda qeyd olunan fikirlərdən göründüyü kimi "Kitablar arasında" şəxsi təhsil probleminin təcrübiliyi müəllifin müxtəlif oxucu qrupları ilə məktublaşması əsasında apardığı dialoqlara, müzakirələrə əsaslanır. N.A.Rubakin "Kitablar arasında" əsərinin formalaşması üçün şəxsi təhsil fəaliyyətinin müxtəlif aspektlərini üzə çıxartmaqdan ötrü kifayət qədər zəhmət

çəkmişdir. O, “1912-ci ildə biz 86-a yaxın məktub aldığımız günlər olurdu. Ən azı günə heç olmasa 5 məktub alırdıq. Cəmiyyətin müxtəlif təbəqələrindən bu cür məktubların axınını gözləmirdik. Əldə olan gücümüzlə qısa müddətdə bücür geniş korrespendesiya ilə bacarmaq çox çətin olurdu” [5,636].

“Kitablar arasındakı” əsərlə tanış olduqca aydın olur ki, N.A.Rubakin çalışırdı ki, şəxsi təhsil” fəaliyyətini oxucuya uyğunlaşdırsın. Ona görə də N.A.Rubakin hesab edirdi ki, bu məqsədə nail olmaq üçün oxucuların da bu prosesdə iştirakı zəruridir. O yazır: “Birinci növbədə ərsiyə gətirdiyimiz işlə oxucuların özlərini tanış edək ki, iş necə çətin başa gəlir. İkincisi oxucuları “məktublaşma prosesi” ilə tanış etməklə mövcud problemi lazımi formada ortalığa qoymaq üçün lazımi fikir və tövsiyyələr alaq. Beləliklə oxucuları problemin qoyuluşu ilə tanış edək ki, bizə müraciət edən oxuculara necə kömək edirik” [5, 637].

Şəxsi təhsil fəaliyyətində oxucu ilə açıq təmasa girərək N.A.Rubakin oxucunu öyrənməyə çalışırdı. Artıq məsələnin bu hissəsini xırdalığı ilə nəzərdən keçirməklə görə bilərik ki, N.A.Rubakinin bibliopsixologiya nəzəriyyəsi necə formalaşmışdır. N.A.Rubakin hesab edirdi ki, lazımi ədəbiyyatı müəyyən oxucuya istiqamətləndirmək üçün oxucu psixologiyasına diqqət etmək lazımdır. Qeyd edilən fikrə istinad kimi N.A. Rubakinin fikirlərinə diqqət edin: “Əvvəlki bölmədən oxucu görür ki, problemin əsas qoyuluşu mütaliə, oxu prosesinin “individualizasiya” edilməsidir. Biblioqrafik və digər göstəriciləri konkret oxucunun şəxsi xüsusiyyətlərinə uyğunlaşdırmaqdır. Amma bu işi yerinə yetirmək üçün oxucunun heç olmasa oxucu kimi bir neçə xüsusiyyətlərini bilmək lazımdır [5, 633].

Ədəbiyyatın oxuculara düzgün istiqamətləndirilməsi üçün N.A.Rubakin oxucunu daha aydın tanımağa can atırdı, bunun üçün isə o “məktublaşma prosesini” əsas vasitə hesab edirdi. Məktublaşma işində isə N.A.Rubakin oxuculara aşağıdakı kimi müraciət edirdi: “ Ona görə də bizim köməyimizdən istifadə etmək istəyən oxuculara müraciət etməklə bizlərə verdiyimiz suallara cavab verərək özləri barədə müəyyən məlumatlar versinlər” – [5,634].

N.A.Rubakin yaradıcılığında sistemlilik özünü “kitablar arasında” əsərində də ifadə etmişdir. Belə ki, o şəxsi təhsil fəaliyyətində oxucu, məktub sonrakı mərhələdə isə məktubun məzmununa istiqamətlənməklə oxucuya ünvanlanacaq suallara diqqət etməyi tövsiyyə edirdi. O yazır: “Hesab etmirik ki, sualların əhatə dairəsini hər hansı çərçivələrlə məhdudlaşdıraq; axı həyatın özü gözlənilməz hadisələrlə boldu, şəxsi təhsil fəaliyyəti də istənilən növ maneə ilə doludur, hətta eləsi var ki, qabaqcadan görmək mümkün deyildir [5,634].

Hadisələri bir tərəfdən qabaqlamağa cəhd etməyən N.A.Rubakin şəxsi təhsil fəaliyyətində oxuculara həm böyük həvəslə, həm də yaradıcı yanaşırdı: “Oxucuların bütün suallarına nəinki dövri nəşrlərin səhifələrində cavab

verirdik, hansılarla ki, əməkdaşlıq edirdik, həmçinin məktublara cavab verirdik. Burada hər oxucunun həyat-mövcud həyat şəraitini ilkin olaraq, vacib olaraq nəzərdə tuturduq” [5, 634].

N.A.Rubakin oxucu sorğularına tam mənada cavab verməyə can atırdı. Bunun üçün isə oxucunun nəinki həyat şəraitini bütövlükdə oxunulacaq suallarla öyrənməyə çalışırdı: “1) Oxucunun yaşı və cinsi; 2) yaşadığı mövcud həyat şəraiti (şəhər, kənd, fabrik, ticarət və s.; 3) fəaliyyətdə olduğu sahələr; 4) təhsil səviyəsi; 5) Ağlın quruluşu və inkişafı ”[5, 634].

N.A.Rubakin “Ağlın quruluşu” sualını daha dəqiq təyin etmək üçün isə digər sualları oxucu qarşısında qoyur: “1) Verilən kitablardan hansıları siz oxucuya daha böyük təsir göstərmişdir( elmi kitablar, yoxsa bellestristikalar) 2) Riyazaiyyat sizə asan gəlirmi, ümumiyyətlə riyazaziyyatı sevirsinizmi? 3) Hansı digər bilgilər sizə maraqlıdır, hansı elm sahəsi sizə asan gəlir. 4) Yaddaşınız necedir. Nəyi rahat yadda saxlayırsınız: faktlar, illər, rəqəmlər, formulalar, adlar, fikirlərin gedişatı. 5) Hansı kitablara üstünlük verirsiniz: fikirləri analiz edən, təsvir edən kitabla və ya hadisələri göstərən kitablara, bədii, müəllif hissiyatı ilə yazılmış kitabları və ya hansı 6) Hansı müəllifin şerlərini xoşlayırsınız, ümumiyyətlə şeri xoşlayırsınızmı? 7) Təbiəti xoşlayırsınızmı (seyr etməyi, yoxsa öyrənməyi) 8) Kitabda nə axtarır və ilk növbədə kitabdan nə istəyirsiniz nə axtarır, ağlını işıqlandıran bilik və ya həyatda necə yaşamağı öyrədən kitab, necə işləməyi öyrədən kitab, praktik göstərişlər, nə? 9) Öz bacarığını yazıçılıqda, ümumilikdə yaradıcılıqda sınayıbsınızmı (hansı həyat sahəsində və fikirlərdə)? 10) Həssas insansınızmı? 11) Nə qədər səbrli, enerjili şəxssən, həyat yolunda olan maneələri dəf etmək üçün özündə güc hiss edirmi. 12) Kitab seçmək qabiliyyəti varmı ( hardan və necə)” [5, 634].

N.A.Rubakin hesab edirdi ki, bütün bu suallara dəqiq və düzgün cavab tapmaqla oxucuya uyğun bilgilər proqramını tərtib etmək olar. N. Rubakin özü aşağıdakı kimi etiraf edir ki, “bu suallara verilən 1000-lərlə cavablar bizim göstərişlərimizin, verdiyimiz istiqamətlərin əsasını təşkil edir.”- [5,636] Həmçinin o belə bir qənaətə gəlir ki, problemin bu cür həlli praktikliyi özündə əks etdirir. O yazır: “ Məktubların kəmiyyəti və keyfiyyəti bizi əmin etdi ki, işin qoyuluşu bizim təcrübəsizliyimizə baxmayacaq kifayət qədər praktikliyi özündə cəm edir” [5,636] Hamınız yaxşı bilirsiniz ki, tibbi müayinə zamanı hər bir şəxsin müəyyən qan qrupu mövcuddur ki, buna əsasən də hər bir şəxsin göstəriciləri təyin olunur və lazımi göstərişlər verilir. Buna əsasən demək olar ki, N.A.Rubakinin oxucularla ünsiyyəti özlüyündə laborotoriya xarakteri daşıyır. N.A.Rubakinin mövcud olduğu tarixi anda hələ internet və informasiya resursları yox idi. Lakin buna baxmayaraq N.A.Rubakin tədqiqat zamanı təcrübələrdən, məktublaşmalardan görürdü ki, oxucuları lazımi istiqamətə yönəltmək o qədər də asan bir proses deyildir.

O məktublaşma prosesinə sistemli yanaşaraq fəaliyyətində operativliyi qorumağa çalışırdı. O yazır: "Nisbi olaraq məsələnin bir tərəfi rahat həll olunurdu. Çünki bir çox sorğu və müraciətlərin, sualların müxtəlif yerlərdən, müxtəlif şəxslərdən gəlməsinə baxmayaraq bəzən mahiyyət etibarilə bir çox məktublar eyni sorğunu ifadə edirdi. Bu isə problemi tez bir zamanda həll etməyə imkanı verirdi (bir cavab verməklə) [5, 636].

N.A.Rubakin məktublaşma prosesində keyfiyyət tərəfini əsas məsələ olaraq diqqət mərkəzində saxlayırdı. Keyfiyyətə əsasən o aşağıdakı təsnifləşdirməni aparmışdır:

1) Oxucuların bizə muraciət etdikləri suallara görə məktublar
2) Aydın olmayan, qeyri-dəqiq məktublar
3) Məktub yazan şəxsin özü haqqında lazımi göstəriciləri olmayan məktublar.

N.A.Rubakin belə bir qənatə gəlirdi ki, məzmunu olmayan məəktublara cavab verməmək də olar. O yazır: "Elə hallar olurdu ki, oxucular bizə məhkəmə işini necə aparmaq lazımdır?", "Yazan maşın sistemlərindən hansını seçək?" kimi suallarla müraciət edirdilər. Ona görə də, biz sualları cavabsız qoyurduq, çünki belə suallara cavab vermək bizim borcumuz sayılmır" [5, 636].

Onun tədqiqatı ilə tanış olduqda aydın olur ki, N.A.Rubakinin oxucu ilə ünsiyyətinin mahiyyəti müasir dövrdə kitabxanaçı və oxucu arasında ünsiyyətin əsl mahiyyətini ifadə edir. O hesab edir ki, kitabxanaçı texniki işçi funksiyasını yerinə yetirməməlidir. Əksinə hər bir oxucu dünyasının dərinliklərinə istiqamətlənməli, onu ən xırda detallara qədər öyrənməlidir. Oxucu psixologiyasına, onun mənəvi dünyasına diqqət etməyi N.A.Rubakin bibliopsixologiyanın əsas tədqiqat obyekti hesab edir. Bunu aşağıdakı sətirlərə diqqət etdikdə görmək olar: "Elə hallar da olur ki, oxucular bizə sırf şəxsi suallarla müraciət edirdilər. Bəzən suallar şəxsin mənəvi dünyasının ən sirli, gizli, gözə görsənməyən tərəflərini əks etdirirdi. Lakin ilk baxışdan elə görünə bilər ki, bü cür sualların "Şəxsi təhsillə" əlaqəsi yoxdur. Amma biz suallara xüsusi diqqətlə cavab veririk. Biz hesab edirik ki, bu bizim ən böyük mənəvi borcumuzdur. Hər belə, bu cür xassəli məktub əslində tək qalmış, işığa yol axtarıb tapmaq istəyən oxucu ruhudur. Bu şəxs aydın, mənalı, işıqlı bir həyata can atır, yol tapmaq istəyir. Məhz bu cür məktublarda bizə "Həyatın mənası barədə", "Yaşamağa dəyərmi" kimi suallarla müraciət edirdilər. Bizə elə oxucular məktub yazırdılar ki, artıq onların həyat eşqi tam sönmə anına təsadüf edirdi. Bəzən eləsidə olurdu ki, artıq həyata əlvida deməyə qərar verirdi. Bəzən də peşimançılıq hissi ilə dolu cümlələrlə rastlaşırdıq. Belə sönük, ağır hallarda biz var gücümüzlə qışqırırdıq: "Dayanın! Hələ ki gec deyil, dayanın! Həyat daha gözəl, tam, sevindirici ola bilər, əslində elə olmalıdır da! Gəlin, bir daha birgə bu məqsədlə daha səylə çalışaq!"

Beləliklə, az olmayan belə halların mütaliə prosesi ilə nə qədər sıx bağlı olduğunu görmək olar. Bu cür gizli, intim olan tərəflər bizim fəaliyyətimizin əsas sual və tapşırıqlarıdı! [5, 636].

N.A.Rubakin hesab edirdi ki, yalnız bü cür kitabxanaçı olmaq oxuculara lazımi tövsiyyələr verə bilər. Sosial-psixoloji yanaşma şəxsi təhsil fəaliyyətində görnüdüyü kimi N.A.Rubakinin baxış prizmasında prioritet məsələ kimi durmaqdadır. N.A.Rubakin qeyri-dəqiq, məzmunu aydın olmayan məktubların müəlliflərinə-oxuculara müraciət edərək yazır: "Bəzən oxucular öz məqsəd və arzularını aydın ifadə etməyi unudurdular. Əgər sual və müraciətlər aydın olarsa, biz kömək etməyə çalışarıq. Yaxşı olardı ki, oxucular bizim bu təklifimizə xüsusi diqqət etsinlər" [5, 637].

N.A.Rubakin sorğuları dəqiq ödəmək üçün oxucuların özlərini aydın ifadə etməyə çağırırdı. N.A.Rubakin oxucuya onun şəxsiyyətinə uyğun ədəbiyyatı tövsiyə etmək üçün oxucu ilə təmasa girərək suallara verilən oxucu cavablarını diqqətlə oxumağı tövsiyə edirdi. O, qeyd edir: "Yenə də, bir çox oxucuların özləri barədə verdikləri məlumatlara əsasən, kitab tövsiyyəsini, kitab seçimini bacardığımız qədər oxucu şəxsiyyətinə uyğunlaşdıra bildik. Bunun əsasında biz təkcə yazılan məktublara diqqət etməklə kifayətlənmirdik. Cümlələrarası, mətnaltıında, ümumilikdə yazı arxasında gizlənən oxucu şəxsiyyətini axtarmağa can atırdıq, onun ümumilikdə müəyyən obrazını xırda detallara qədər ortalığa çıxarmağa çalışırdıq" [5, 637].

Diqqətinizi "yazının arxasında gizlənən axucu şəxsiyyəti" ifadəsinə yönəltmək istərdim. Hesab etmək olar ki, N.A.Rubakin oxucunu fərdi, dünyagörüşünün gizli qalan tərəflərini əks etdirə biləcək vasitə kimi ən optimal üsulu yazılı şəkildə aparılan dialoqlara bilərəkdən üstünlük veririd. Çünki oxucunu ona ünvanlanmış suallara sərbəst cavab vermək ixtiyarına buraxmaqla birinci növbədə onun maraq dairəsini, ikinci növbədə isə oxucunun dünya görüşü və intellektinin səviyyəsini müəyyən edirdi. Oxucu barəsində əldə edilmiş ətraflı məlumatlar N.A.Rubakini əhəmiyyətli fakt kimi daima diqqət mərkəzində saxlayırdı. Bunu aşağıdakı fikir də təsdiq edəcəkdir. N.A.Rubakin yazır: "Beləliklə bizim tərəfimizdən qəbul etdiyimiz məktublar arasında elələri var ki, oxucu aftobioqrafiyasını tamlığı ilə ifadə edirdi ki, bu da bizim üçün dəyərli əhəmiyyət-nəticə kəsb edirdi." [5, 637]. N.A.Rubakin oxucuların onlara ünvanlanmış və ya ümumilikdə oxucu suallarını nisbi olaraq iki tipə ayırır:

1) Konkret sorğu ilə yazan oxucular.
2) Ümumi sorğu ilə yazan oxucular [5, 637-638].

Konkret sorğu ilə müraciət edən oxucular tədqiqatçının qeyd etdiyi kimi aydın suallar, konkret elm sahəsini müəyyən tərkibi ilə əlaqədar və s. aydın və konkret sualla müraciət edirdilər. N.A.Rubakini əsasən ikinci tip oxucu sualları - ümumi mənalı suallar daha çox düşündürüdü. Belə ümumi yazılmış sual-

larda məqsəd və məzmun çox çətin anlaşılır və ümumi tipli yazılara konkret cavab verməkdə tədqiqatçıya çətinlik törətsə də, amma N.A.Rubakinin daima maraq və diqqət mərkəzindədir. O yazır: "II tip oxucular isə bizə ümumi suallar verirlər: Necə edək ki, təhsilli şəxs olaq, təhsil sisteminin mahiyyəti nədir və s. şəxsi təhsillə əlaqədar müraciət edənlərin bir çoxu müəyyən elm sahəsinə uyğun konkret suallar qoymur. Bu cür tip oxucular isə "necə başlasınlar"-mexanizmini bilmədiklərinə görə hara və necə, kimə müraciət etsinlər, bilmirlər. Ona görə də onlar ümumi plana ehtiyyac duyurlar. Bu cür tip oxucuya cavab vermək kifayət qədər çətindi" [5, 637].

Ümumi tip oxucularla əlaqəni N.A.Rubakin çətin hesab etsə də o oxucunu cavabsız qoymamağı vacib hesab edirdi. N.A.Rubakin bu prosesdə çətinliyi isə özünün də qeyd etdiyi kimi, oxucuda idtinad nöqtəsini tapmaq idi. O yazır: "Bu cür tip oxucuya cavab vermək kifayət qədər çətindi. Çətinlik ondadır ki, cavab məktublarında biz istinad nöqtəsi tapa bilmirik ki, buna əsasən müəyyən kitab və məqalələri tövsiyyə edək. Bu cür oxucularda vaxt və əhval-ruhiyyə itgisi yaranmasın deyə onlara həmişə az sayda (oxucunu qorxutmamaq üçün) müəyyən uyğun olan kitabların siyahısını veririk. Müəyyən kitabları tövsiyyə etmək oxucu barəsində daha konkret məlumatlar alana qədər mütləqdir. Verdiyimiz kitab siyahısından yalnız 1-nə münasibət göstərməklə biz artıq təyin edirik ki, kitab siyahısı oxucu şəxsiyyətinə uyğundurmu" [5, 637-638].

Göründüyü kimi bibliopsixologiyanın əsas tədqiqat metodu olan oxucunu "sözə, əlyazma və nəşrə verdiyi reaksiyalara əsasən öyrənmə üsulu burada özünü aydınlığı ilə ifadə edir.

Oxucu şəxsiyyətinin təyin olunması problemində N.A.Rubakin obyektivliyi qoruyub saxlamağa cəhd edir. Məhz bu cür cəhd etmə, yanaşma da onun müxtəlif aspektlərdən yanaşmasına, bir-birindən fərqli və ziddiyyətli olan rəngarəng fikirlərinin yaranmasında səbəb olmuşdur.

Beləliklə, şəxsi təhsil fəaliyyətinin oxucu şəxsiyyətinə uyğun təşkil olunması prosesində N.A.Rubakin məsələyə 3 prizmadan yanaşır: 1) oxucu tipinin təyin olunması-düşüncə tərzi; 2) oxucu ağlının təyin olunması-düşüncə tərzi; 3) yuxarıda qeyd olunanlara əsasən oxucuya uyğun ədəbiyyatın verilməsi.

"Şəxsi təhsil fəaliyyətinin oxucu şəxsiyyətinə uyğunlaşdırılması" problemi N.A.Rubakinin bibliopsixologiya nəzəriyyəsində əsas mövzulardan birini təşkil edir. Hesab etmək olar ki, müasir kitabxanaşünaslıq elmində, kitabxana-informasiya xidmətinin təşkilində mütaliə psixologiyasının öyrənilməsində "Şəxsi təhsil fəaliyyətinin oxucu şəxsiyyətinə uyğunlaşdırılması" mövzusunun ciddi tədqiqata ehtiyacı vardır.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş:Dərslik. Bakı, 2001, 400 s.*
2. *Rzayev S. Kitabxana xidməti. Bakı, 2009, 337 s.*
3. *Knyaz Aslan. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu: Monoqrafiya. Bakı: BDU, 2008, 324 s.*
4. *Bayramov Ə. S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2009, 620 s.*
5. *Рубакин Н.А. Библиологическая психология. М., 2006, 800 с.*
6. *Фролов С. С. Общая социология. М., 2008, 384 с.*

## A PROBLEM SELF-EDUCATION AND ITS ADAPTATIONS TO THE PERSONALITY" IN THE THEORY OF A BIBLIPSYCHOLOGY OF N.A.RUBAKIN

**E.L.AZHDAROV**
***rubakin.aleksadrovic@mail.ru***

### *SUMMARY*

**Key words:** *Self education, the identity of the reader, bibliopsihology, Nikolai Rubakin.*

*Article covers "a problem self-education and its adaptations to the personality" in the theory of a biblipsychology of N. A. Rubakin.*

## ПРОБЛЕМА САМООБРАЗОВАНИЯ И ЕЕ АДАПТАЦИИ К ЛИЧНОСТИ В ТЕОРИИ БИБЛИОПСИХОЛОГИИ Н.А.РУБАКИНА

**Э.Л.АЖДАРОВ**
***rubakin.aleksadrovic@mail.ru***

### *РЕЗЮМЕ*

**Ключевые слова:** *Самообразвание, Н.А. Рубакин, личность читателя, библиопсихология.*

*Статья охватывает «проблему самообразования и ее адаптации к личности» в теории библиопсихологии Н.А.Рубакина.*